Əmrə əsasən Təhsil Nazirliyinin tədbirlər planı təsdiq olunub.

Tədbirlər planında fevralın 26-da ali, orta ixtisas, ümumtəhsil, texniki-peşə, məktəbəqədər və məktəbdənkənar müəssisələrdə ilk dərs saatının Xocalı soyqırımına həsr edilməsi, bu təhsil müəssisələrinin internet saytlarına soyqırımla bağlı məlumatların daxil edilməsi, rəsm sərgiləri, matəm mitinqləri, bədii və xatirə gecələrinin keçirilməsi, tamaşalar hazırlanması, sənədli və bədii filmlərin nümayişinin təşkil edilməsi, soyqırımın şahidi olan şəxslərlə görüşlər keçirilməsi barədə təhsil müəssisələrinin rəhbərlərinə, rayon və şəhər təhsil şöbələrinə tapşırıqlar verilib.